Bülleten No: 35 / noyabr 2015

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

NOYABR 2015

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# “Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin və 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1276-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

“Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1495) 5-ci hissəsində və 7.2-ci bəndində “2015-ci il dekabrın” sözləri “2017-ci il yanvarın” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 oktyabr 2015-ci il.*

# "Elektron Hökumət" portalının yeni versiyası vətəndaşların istifadəsinə verildi

"Elektron Hökumət" portalı artıq daha sadə və əlçatandır... "Elektron Hökumət" portalının yeni versiyası hazırlanaraq vətəndaşların istifadəsinə verildi. Portalın yeni versiyası hazırlanarkən xidmətlərin istifadəçi yönümlü olması və vətəndaşlar tərəfindən daha sadə və daha rahat şəkildə istifadəsi əsas prioritet götürülmüşdür.

İstifadə səmərəsini yüksəltmək məqsədilə portalda "Bütün Xidmətlər", "Elektron arayışlar", "Elektron Ödənişlər", Qeydiyyatsız Xidmətlər", "Xüsusi Razılıq (Lisenziyaların verilməsi)", "Həyat Hadisələri", "Sahələr", "Yerli İcra Hakimiyyətləri", "Müraciətlər" kimi xidmət qrupları formalaşdırılmışdır.

Məlum olduğu kimi, artıq portalda qurumlar tərəfindən təqdim olunan 424 e-xidmət mövcuddur. Bundan əlavə, “Onlayn ödənişlər” kimi bölmələr portalın xidmət çərçivəsini zənginləşdirməklə vətəndaşlar üçün vahid xidmət məkanı təmin edir.

Portalın müasir və sadə interfeysi ilə istifadəçilər əvvəlki ilə müqayisədə daha asan şəkildə elektron xidmətlərlə tanış olmaq və istifadə etmək imkanı əldə ediblər. Portalda elektron xidmətlərin axtarışı istifadəçilər üçün xüsusi axtarış bloku vasitəsilə sadələşdirilib.

Həmçinin, istifadəçilərin nəzərinə çatdırmaq istərdik ki, portalda qarşılaşdıqları orfoqrafik səhvləri elə yerindəcə işarələyib (control+enter düymələri vasitəsilə) portalın inzibatçılarına göndərə bilərlər. Artıq “Elektron Hökumət” portalında 157 Zəng (Çağrı) Mərkəzinə gün ərzində daxil olan zənglərin sayını da görmək mümkündür.

Portalın istifadəçiləri “Online Konsultasiya”, “Əks Əlaqə”, “Mənim xidmətlərim” kimi funksionallıqlardan yeni versiyada da faydalana biləcəklər.

***Portalın yeni versiyası hazırlanarkən dünya təcrübəsində öz təsdiqini tapmış aşağıdakı prinsiplər diqqətə alınmışdır:***

***- Sürətli axtarış panelləri;***
***- İstifadəçi yönümlü və sadə dizayn;***




***- İstifadəçinin marağına uyğun olaraq xidmətlərin qruplaşdırılması;***
***- İstifadəçinin informasiyanı rahat tapa bilməsi üçün ikonlardan istifadə;***
***- Dizaynın gələcəkdə mobil versiyaya tətbiqi üçün əlverişli olması.***

“Elektron Hökumət” mövcud sosial xidmətlərin elektronlaşdırılmasına nəzarət edən və bu xidmətləri vətəndaşlara "bir pəncərə" prinsipi üzrə vahid portalda təqdim edən geniş platformadır. Bu platformada "Elektron Hökumət" portalının rolu ayrı-ayrı qurumların internet səhifələrdə xidmət axtarışına çıxan vətəndaşları əlavə vaxt itkisindən azad etməkdir. Bundan başqa, portalın əsas funksiyalarından biri də portal üzərindən qurumlararası informasiya mübadiləsinin təmin edilməsi, bununla da elektron xidmətlərin maksimum optimallaşdırılması və xidmətlərdən istifadə zamanı istifadəçidən minimum məlumatların tələb edilməsidir.

www.e-gov.az

# "Elektron Hökumət" portalının yeni istifadəyə verilən mobil tətbiqi vətəndaşların işini asanlaşdıracaq

**"Elektron Hökumət" (www.e-gov.az) portalının mobil versiyası 20 elektron xidmət ilə vətəndaşların istifadəsinə təqdim edildi. Mobil əlavəyə giriş e-imza kartı, istifadəçi adı/şifrə, mobil İD vasitəsilə mümkündür.**

Mobil əlavəyə giriş etdikdə qurumlar üzrə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 7, Daxili İşlər Nazirliyinin 1, Ədliyyə Nazirliyinin 1, Səhiyyə Nazirliyinin 3 elektron xidmətindən istifadə edə bilərlər. Həmçinin, 6 adda e-arayış (çıxarış) da mobil versiyaya əlavə edilmişdir. Vətəndaşlar bu çıxarışlar vasitəsilə artıq istədikləri yerdən fərdi məlumatlarını tələb olunan quruma göndərə biləcəklər. Həmçinin, "Elektron Hökumət" portalının mobil əlavəsi vasitəsilə vətəndaşlar kommunal, ipoteka, dövlət yol polisi tərəfindən tətbiq olunan cərimələri barədə real vaxt rejimində xəbər tuta biləcəklər. Qeyd etmək lazımdır ki, bildirişlər hissəsində mövcud xidmətlər birbaşa “Elektron Hökumət” portalına bu yaxınlarda qoşulmuş “Hökumət Ödəniş Portalı”ndan inteqrasiya edilir. İstifadəçi sadəcə bildiriş almaq istədiyi xidmətin bildiriş funksiyasını aktivləşdirir. Mobil əlavədə istifadəçi məlumatları, favorit elektron xidmətlər və son yeniliklər barədə xəbərlər müvafiq bölmələrdə əks olunur.

Mobil əlavə üzərindən aidiyyatı suallarla bağlı 157 Zəng (Çağrı) Mərkəzinə müraciət etmək mümkündür.

Artıq bir çox xidmətlər "Elektron Hökumət" portalının mobil əlavəsi vasitəsilə vətəndaşlara daha rahat və yaxındır.




Mobil əlavələrin yüklənməsi pulsuz həyata keçirilir və gələcəkdə daha çox istifadə olunan digər xidmətlərin də mobil versiyaya əlavə olunması planlaşdırılır.

Qeyd edək ki, "Elektron Hökumət" portalının mobil platformasının ilkin versiyasından hələlik İOS əməliyyat sisteminin idarəçiliyi altında işləyən mobil qurğu sahibləri faydalana biləcəklər.

# “HP” (Hewlett-Packard) şirkətinin tərəfdaşı kimi MHM-nin əldə edəcəyi üstünlüklər




“Elektron Hökumət” portalının operatoru fəaliyyətinin bütün istiqamətlərini beynəlxalq standartlar çərçivəsində qurmaqla yanaşı aparıcı İT şirkətlərlə də əlaqələrini genişləndirmək istiqamətində işlər aparır. Məlumat verdiyimiz kimi, yaxın günlərdə operator öz inkişaf mərhələsində növbəti addım atmış, dünyanın nəhəng proqram təminatçısı olan “Microsoft” şirkətinin Gümüş tərəfdaşlardan biri olmuşdur. Bununla da, "Microsoft"un bütün tələblərinə uyğun iş prosesini müvafiq standartlara uyğun təşkil edən operator, proqram təminatının inteqrasiyası üzrə “Microsoft”un sertifikatlaşdırılmış təcrübəsini əldə edib.

Bu günlərdə RYTN Məlumat Hesablama Mərkəzində informasiya texnologiyaları sahəsində dünyanın ən iri şirkətlərindən biri olan “HP” (Hewlett-Packard) şirkətinin nümayəndələri ilə görüş keçirib. Görüşdə HP-nin partnyorları sırasına qoşulmaq üçün tələb olunan sertifikatlaşdırma prosesləri, standartlar müzakirə edilib. Həmçinin, standart olmayan avadanlıqlar, serverlər üzrə ixtisaslı mütəxəssislərin hazırlanması məsələsi gündəmə gətirilib.

Görüş çərçivəsində "HP"-nin MDB-də təhsil proqramlarının biznesinin inkişaf rəhbəri Elvira Sapojnikova və "HP" şirkətinin Azərbaycan nümayəndəliyinin mütəxəssisi Məmməd Əliyev müəssisənin infrastrukturu, server və avadanlıqların saxlanılması ilə yaxından tanış oldu.

"HP" şirkətinin dəstəyi ilə müəssisədə sertifikatlaşdırılmış mütəxəssis hazırlığı üçün Elm-Tədris Mərkəzinin yaradılması planlaşdırılıb. “Elektron Hökumət” portalının operatoru "HP"-nin sertifikatlaşdırılmış tərəfdaşı kimi lokal onlayn kurslar, virtual labaratoriyalar və müstəqil təhsil resurslarından faydalanmaq imkanına sahib olacaq. Öz növbəsində bu tərəfdaşlıq müəssisənin işinin səmərəliliyini artmasına, texniki və marketinq bacarıqlarının yüksəlməsinə xidmət edəcəkdir.

Operatorun “HP” (Hewlett-Packard) şirkəti ilə strateji tərəfdaşlığı ölkəmizdə müasir texnologiyaların inkişafına təkan verəcək, həmçinin, tətbiq olunacaq texnologiyaların "Elektron hökumət" quruculuğu, elektron xidmətlərə tətbiq olunması xidmət məkanı kimi portalın potensialını daha da artıracaq.

Qeyd edək ki, "Elektron Hökumət" portalının operatoru Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzidir.

# IDENTITY SCORE - "Elektron Hökumət" portalı şəxsiyyətin daha dəqiq və ətraflı identifikasiya sistemini formalaşdırır

**"Elektron Hökumət" portalı vətəndaş barədə dəqiq və ətraflı məlumatları özündə əks etdirən vahid informasiya sisteminə çevrilməkdədir.**




Beləliklə, portal vasitəsilə vətəndaşlar özlərinə məxsus məzmunca yeni, növbəti elektron çıxarışı (arayış) istifadə edə biləcək. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə aid olan bu çıxarışda vətəndaşa məxsus stasionar telefonlar vasitəsilə təqdim edilən rabitə xidmətləri (aylıq abunə haqqı, şəhərlərarası və beynəlxalq danışıqlar, müxtəlif servislər internet xidmətləri və s.) üzrə son 12 ay ərzində hesablanmış və ödənilmiş məbləğ avtomatik sistem tərəfindən formalaşdırılacaq.

Bu xidməti ətraflı təhlil etsək, ilk növbədə bu növ məlumatlar vətəndaşın ödəyicilik qabiliyyətini müəyyən etməyə imkan verən qiymətləndirmə sisteminin tərkibidir. Sual oluna bilər ki, subyektin il ərzində xidmətlər üzrə apardığı ödənişlər cədvəl şəklində təqdim edilə bilər. Ancaq bir məqam da var ki, bu çıxarış həm də şəxsiyyətin fərdi keyfiyyətlərini xarakterizə etməyə imkan verir.

Beləki, günümüzdə fərdə aid məlumatların saxtalaşdırılması və ya şəxsi məlumatlarla iş zamanı yol verilən səhvlər bir çox sahələrdə xüsusən maliyyə müəssisələri, banklar, kredit təşkilatlarını və s. xeyli zərər çəkməsinə səbəb olur.

Bu istiqamət üzrə dünya təcrübəsinə nəzər saldıqda, maliyyə müəssisələri saxta məlumatların aşkarlanması üçün xüsusi biznes və müştəri identifikasiya sistemlərindən istifadə edir. Bu sistem fərdin müəyyən edilməsi üçün geniş həcmli istehlakçı (müştəri) məlumatlarını özündə birləşdirir. İdentifikasiya əlamətləri üzrə komponentlərə şəxsi identifikatorlar (fərdi məlumatlar), sosial məlumatlar, internet məlumatları, hökumət məlumatları, empirik məlumatlara əsaslanan təxmini davranış nümunələri, özünü qiymətləndirmə nümunələri və kredit məlumatları daxildir. Tətbiq olunan identifikasiya sistemləri müxtəlif mənbələrdən toplanılmış məlumatlar üzərində hazırlanır. Belə məlumatlar ümumilikdə üç kateqoriyaya bölünə bilər: Ümumi məlumatlar, Şəxsi məlumatlar və Kredit məlumatları.

"Elektron Hökumət" portalı mövcud informasiya resurslarını nəzərə alaraq bu istiqamətdə daha innovativ həll təklif edir.

Yuxarıda qeyd edildiyi kimi, RYTN tərəfindən tətbiq olunan çıxarış bu sahədə bir ilk olmaqla digər qurumlar üçün də nümunə və həmişə olduğu kimi çağırış olacaqdır. Sözügedən arayışın timsalında digər xidmət və rüsumların ödənişlərini həyata keçirən dövlət və qeyri dövlət təşkilatlarımız da bu nümunəyə qoşularaq xidmət haqqının hesablanmış məbləğləri və ödənişləri haqda uyğun servisləri hazırlayaraq "Elektron Hökumət" portalına təqdim edə bilər.

Bu təşəbbüslər zamanla hüquqi və fiziki şəxslərimizin "fərdi keyfiyyətlərini müəyyən etməyə imkan verən" vahid identifikasiya sisteminin (Identity score) formalaşdıracaq.

Bu ideya ƏƏSMN –nin VEMTAS layihəsi çərçivəsində yaranmışdır. Bildiyiniz kimi, ünvanlı dövlət sosial yardımın ayrılması üçün vətəndaşa ailə üzvlərinin bütün kommunal və kütləvi ödənişlər üzrə son 12 ayda apardığı əməliyyatların vətəndaş tərəfindən təqdim edilməsi tələb olunur. Mövcud informasiya resurslarından faydalanaraq bu tələbin aradan qaldırılması və bu növ məlumatların avtomatik sistem tərəfindən formalaşması mümkündür. Hazırda, bir sıra qurumlarla artıq bu istiqamətdə kifayət qədər iri həcmli işlər aparılır.

Digər nöqteyi-nəzərdən, təsəvvür edin biznes təklifi ilə üzüzəsiniz və ya qarşınızda işə götürmək istədiyiniz cavan bir mütəxəssis, lakin tərəddüdləriniz və şübhələriniz var. Əsassız deyil qarşınızda heç tanımadığın biri dayanıb. Nə etməli?!

Identity score yəni identifikasiya sistemi sizə subyekti qiyabi olaraq tanımağa imkan yaradacaqdır, etibar etmək olar, inanmaq olar, güvənmək olar. Bundan sonrası daha asandır.

Şəxsi məlumatlar barədə ən dəqiq və dolğun informasiyanı özündə birləşdirən "Elektron Hökumət" portalı bu istiqamətdə fəaliyyətini hər ötən gün genişləndirir. Belə məlumatlar müxtəlif dövlət qurumlarının informasiya sistemindən toplanır və istifadəçi tələblərinə uyğun portalda əksini tapır. Portalda vətəndaş barədə toplanan informasiyalar, informasiyanın dəqiqliyi müxtəlif mənbələr üzrə dəfələrlə yoxlanılır. Bu baxımdan, cari ildə istifadəçi/istehlakçı (abunəçi) məlumatlarının təşkili üzrə bir neçə qərar qəbul olunmuşdur. Artıq istehlakçı/müştəri məlumatlarının dəqiqliyi "Elektron Hökumət" portalı üzərindən yoxlanılır və bəzi sosial xidmətlərin icrası məhz fərdi məlumatlar portal tərəfindən təsdiqləndikdən sonra mümkündür.

Sevindirici haldır ki, RYTN MHM–də illər əvvəl müzakirəsi belə çətinliklə qəbul olunan ideyalarımız bu gün reallaşmış və cəmiyyətə töhfəsini verməkdədir.

Bu gün bu layihəyə "Elektron Hökumət" portalının operatoru olaraq ilk MHM başladı, ümid edir ki, bu təşəbbüsə tezliklə digər qurumlar da qoşularaq vahid identifikasiya sisteminin formalaşmasını sürətləndirəcək.

www.e-gov.az

# “E-Gov identity” Elektron Hökumət portalına girişi daha da sadələşdirəcək

“Elektron Hökumət” Portalının Operatoru vətəndaşların portaldan istifadəsini asanlaşdırmaq və sadələşdirmək məqsədilə daha bir autenfikasiya vasitəsini, “E-gov identity”-ni vətəndaşların istifadəsinə verdi.

Belə ki , “E-Gov identity” bir identifikasiya növü kimi sistemə sadələşdirilmiş, təhlükəsiz və rahat girişi təmin etmək üçün nəzərdə tutulmuşdur. “E-gov identity”ni aktivləşdirmək üçün sadəcə "Elektron Hökumət" portalına daxil olmağınız və nəzərdə tutulmuş xidmətdən yararlanmağınız kifayətdir. Bunun üçün, portala giriş etmək, şəxsiyyət vəsiqəsi üzrə qeydiyyatda olan mobil telefon nömrəsini aktivasiya vasitəsilə xidmətə qoşmaq lazımdır. Qeyd edək ki, vətəndaşın adına təyin edilmiş mobil telefon nömrəsinə yalnız bir ədəd FİN (Fərdi İdentifikasiya Nömrəsi) qoşmaq mümkündür. Amma, bir FİN-i bir neçə mobil telefon nömrəsinə bağlamaq mümkündür.




**“E-gov identity” sisteminin bir sıra üstünlükləri vardır:**

**“E-gov identity”in əsas üstünlüyü** “Elektron Hökumət” kimi böyük bir layihənin imicini kifayət qədər yüksəkdə saxlamasıdır. Sistem istifadəyə verildikdən sonra bir çox (hesab.az asanpay.az v.s kimi) FİN ilə işyələn portallar sistemi öz autentifikasiya vasitələri kimi inteqrasiya edə biləcəklər. Həmçinin müxtəlif dövlət qurumları, elektron xidmətlər də mövcud sistemdən yararlana biləcəklər. Buda kütləvi istifadə edilən layihələrdə elektron hökumətin imzası ilə girişi təmin edəcək bir imic yaradacaqdır.

**Elektron şəkildə xidmətə qoşulma** – vətəndaşlar birbaşa “Elektron Hökumət” portalına daxil olaraq adlarına qeydiyyatda olan mobil telefon nömrələrini aktivasiya vasitəsilə xidmətə qoşa biləcəklər. Nəzərə almaq lazımdır ki, portala girişi təmin etmək üçün sadələşdirilmiş bir çox autentifikasiya vasitəsi vardır ki, vətəndaş bunların hər hansı birindən istifadə edərək portala daxil ola bilər və yaradılmış xidmət vasitsəilə “e-identity”yə qoşula bilərlər.

**Heç bir fiziki müraciət olmadan** – vətəndaşlar heç bir fiziki müraciət etmədən elektron formada mobil identifikasiya vasitəsinə qoşula biləcək və daha sonra istər e-gov portalına, istərsə də digər xidmətə inteqrasiya edilən portallara giriş edə biləcəklər.

**İdentifikasiya rahatlığı** – sistemə giriş üçün sadəcə qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsi və sistemin Sizə təyin etdiyi və ya daha sonra özünüz dəyişdirdiyiniz identifikasiya kodunu yazaraq qarşınıza çıxan aktivasiya kodunu SMS vaistəsilə identifikasiya etməyiniz kifayət edir ki, sistemə giriş edəsiniz.

**İdentifikasiya kodunu unutduqda** – sadəcə təkrar “Elektron Hökumət” portalına istənilən autentifikasiya vasitəsilə giriş etməyiniz kifayətdir. Müəyyən edilmiş paneldən pin kodu unutdum düyməsini seçərək təkrar identifikasiya kodunu SMS vasitəsilə əldə edə bilərsiniz.

**İdentifikasiyanın ləğvi** – portala istənilən autentifikasiya vasitəsilə daxil olaraq istədiyiniz adınıza qeydiyatda olan mobil tel. nömrəsini “e-gov identity” xidmətindən ləğv edə bilər və daha sonra təkrar qoşula bilərsiniz.

Hesab edirik ki, “E-Gov identity” sisteminin tətbiqi “Elektron Hökumət” portalına girişi daha da sadələşdirəcək və elektron xidmətlərdən istifadə sayını artıracaqdır.

# Dövlət Sosial Müdafiə Fondunun daha 2 xidməti “Elektron Hökumət” portalına interqasiya edildi

Dövlət Sosial Müdafiə Fondunda elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülür. Bu məqsədlə Dövlət Sosial Müdafiə Fondu daha iki elektron xidməti vətəndaşların istifadəsinə verib və bununla da Dövlət Sosial Müdafiə Fondunun “Elektron Hökumət” portalında təqdim etdiyi xidmətlərin sayı 17 yə catıb. Yeni istifadəyə verilən xidmətlər:

**- Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması**

**- Ailə kəndli təsərrüfatının onlayn uçota alınması**

Bu xidmətlər interaktiv olmaqla yanaşı, xidmətlərdən istifadə ödənişsizdir. Bu xidmətlərdən istifadə vaxt itkisinin aradan qalxmasına, eyni zamanda bu sahədə şəffaflığın təmin olunmasına gətirib çıxaracaq.

Dövlət Sosial Müdafiə Fondu

Qeyd edirik ki, cari ilin sentyabr ayı ərzində Dövlət Sosial Müdafiə Fondunun portaldkı e-xidmətlərindən istifadə sayı 94102 olmuşdur və bütün qurumlar arasında istifadə sayına görə 3-cü olmuşdur.

# "Elektron Hökumət" bülleteninin oktyabr sayının təqdimat mərasimi keçirildi




**9 oktyabr tarixində "Elektron Hökumət" portalının operatoru tərəfindən "Elektron Hökumət" bülleteninin oktyabr sayının təqdimatı üzrə brifinq keçirildi.**

Tədbirdə media nümayəndələri, Mərkəzi Seçki Komisiyasının İnformasiya Texnologiyaları şöbəsinin müdiri Rüfət Gülməmmədov, Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli, Mədəniyyət və Turizm Nazirliyinin "Texniki təchizat və proqram təminatı" şöbəsinin müdiri Qabil Abbasov iştirak etdi.

Tədbiri MHM-nin direktoru açaraq, "Elektron Hökumət" quruculuğu sahəsində son yeniliklər və statistik rəqəmlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Natiq bildirdi ki, portal üzərindən təqdim olan e-xidmətlərin sayı və e-xidmətlərdən istifadədə dinamik artım var. Belə ki, "Elektron Hökumət" portalına daxil olanların sayı 2,5 milyonu, elektron xidmətlərdən istifadə sayı isə 16,1 milyonu keçmişdir. Portal üzərindən təqdim olunan e-xidmətlərin sayı artıq 422-yə çatmışdır. Statistik göstəricilərə görə sentyabr ayı ərzində portala müraciət edənlərin 27,3%-ni yeni istifadəçilərin isə, 72,7%-ni təkrar müraciət edənlər təşkil edib.

Məruzəçi həmçinin "Elektron Hökumət" portalının yeni dizaynı barədə məlumat verdi. Bildirdi ki, yeni dizayn istifadə baxımından daha rahat və əlverişlidir. O bütün media işçilərini "Elektron Hökumət" üzrə təhlillər aparmağa, bu sahənin mütəmadi işıqlandırılması və gündəmdə saxlanılmasında yardımçı olmağa dəvət etdi.

Sonra, natiq tədbirdə iştirak edən Mərkəzi Seçki Komisiyasının şöbə müdirlərini təqdim edərək, bu il ölkəmizdə Milli Məclisə seçkilər keçiriləcəyini vurğuladı. Məruzəçi qeyd etdi ki, vətəndaşlar cari ildə MSK-nın e-xidmətlərindən aktiv şəkildə istifadə ediblər. Belə ki, bu ilin 9 ayı ərzində MSK-nın xidmətlərindən 10 574 dəfə istifadə olunub.

Mərkəzi Seçki Komisiyasının İnformasiya Mərkəzinin müdiri R.Gülməmədov çıxış edərək qeyd etdi ki, informasiya-kommunikasiya texnologiyaları bu gün yaşadığımız həyatın ayrılmaz hissəsidir. İKT sahəsində baş verən yeniliklər həyatın bütün sahələrinə təsir etməkdədir. Belə sahələrdən biri də demokratiyanın bərqərar olmasının təsirli mexanizmlərindən olan seçkilər prosesidir. Seçkilərdə İKT-nin tətbiqi onun nəticələrinin qısa zaman ərzində hesablanıb elan edilməsinə, maliyyə vəsaitlərinin qənaətinə və seçki sisteminin şəffaflaşmasına səbəb olur.

Azərbaycanda seçki prosesində İKT-nin ilkin tətbiqi 2000-ci ilə təsadüf edir. "Seçkilər" Avtomatlaşdırılmış İnformasiya Sisteminin yaradılması ilə başlanan bu iş seçki prosesini, səslərin qeydiyyata alınması və hesablanması məsələsini xeyli sadələşdirmişdir.

Hazırda Mərkəzi Seçki Komisiyası tərəfindən "Elektron Hökumət" portalı vasitəsilə vətəndaşlara 6 növ elektron xidmətlər təqdim olunur və vətəndaşlarımız portal üzərindən istənilən vaxt autentifikasiyadan keçmədən qeyd olunan xidmətlərdən istifadə etməklə faydalı məlumatları asanlıqla əldə edə və müraciətlər göndərə bilirlər.

Məruzəçi çıxışının sonunda qeyd etdi ki, bu ildə seçki prosesində İKT-nin tətbiqi genişləndiriləcək və 1 noyabr tarixində keçiriləcək seçkilərdə vətəndaşların daha aktiv iştirakını təmin edəcəkdir.

Həmçinin, Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli çıxışında seçki prosesinə müasir texnologiyaların 2008-ci ildən tətbiq edildiyini söylədi. O veb-kameraların seçki prosesinin onlayn izlənilməsinə tətbiqinin rolundan danışdı. Qeyd etdi ki, səsvermə kabinəsi istisna olmaqla seçki məntəqələrində müvafiq proseslər veb-kameralar vasitəsilə onlayn rejimdə izlənilir. Bu da aşkarlığı və şəffaflığı təmin etməyə imkan verir.

Sonra aparıcı sentyabr ayı ərzində Mədəniyyət və Turizm Nazirliyinin 11 yeni e-xidmətinin portala inteqrasiya edildiyini bildirdi və sözü Mədəniyyət və Turizm Nazirliyinin "Texniki təchizat və proqram təminatı" şöbəsinin müdiri Qabil Abbasova verdi.

Q.Abbasov vurğuladı ki, Mədəniyyət və Turizm Nazirliyi e-xidmətlər portalında 2011-2012-ci ildən başlayaraq 6 elektron xidməti əhalinin istifadəsinə vermişdir. Onlardan 3-ü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmişdir. 2015-ci ildə Nazirlik daha 3 yeni xidməti öz resurslarında yerləşdirmişdir. Bu xidmətlərdən 2-si Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuşdur. Hazırda Nazirlik 9 elektron xidmət təqdim edir. 2015-ci ilin sentyabr ayında bu xidmətlərin hamısı "Elektron Hökumət" portalına inteqrasiya edilmişdir. Bununla yanaşı "Açıq Hökumət" məlumat portalına Nazirlik tərəfindən 8 servis əlavə olunmuşdur. Həmçinin, Nazirlik "Elektron Hökumət" portalı vasitəsilə turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin lisenziyaları haqqında arayışların verilməsini də təmin etmişdir.

www.e-gov.az

Məruzəçi, həmçinin, "Elektron Hökumət" portalı vasitəsilə turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin lisenziyaları haqqında arayışların verilməsi haqqında məlumat verdi. Qeyd etdi ki, fiziki və hüquqi şəxslərin lisenziyaları haqqında arayışların verilməsi ölkəmizdə lisenziyasız fəaliyyət göstərən istirahət mərkəzlərin öyrənməkdə həm vətəndaşlara, həm də turistlərə yardımçı olacaq.

Qabil Abbasov artıq Mədəniyyət və Turizm Nairliyinin 12 xidmətinin portal inteqrasiya etdiyini söylədi. Məruzəçi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Açıq Hökumət" məlumat portalına təqdim edilmiş servislər, xüsusilə "GoMap" haqqında da məlumat verdi. Qeyd etdi ki, mütəmadi olaraq xəritədə yenilənmələr gedir və artıq "GoMap" Azərbaycana gələn turistlərin respublika daxilində sərbəst hərəkət etmələri üçün bir naviqasiya sistemi formalaşdırıb. Bu sistem demək olar ki, turistlər üçün həm də taksi xidməti göstərir. Turist gedəcəyi A və B nöqtəsini xəritədə müəyyən etməklə taksi xidmətinin məbləğini hesablaya biləcək. Bununla bağlı London taksiləri ilə müqavilə də imzalanıb. Gələcəkdə digər taksi xidməti göstərən şirkətlərlə də bu cür müqavilələrin bağlanması gözləniləndir.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz öz çıxışında mətbuat nümayəndələrini ölkədə baş verən elektronlaşma prosesi ilə daha yaxından maraqlanmağa, nöqsanlar və çatışmazlıqlar üzrə araşdırmalar apararaq daha tələbkar olmağa səslədi.

Tədbir mətbuat nümayəndələrinin sualları üzrə müzakirələrlə yekunlaşdı.

## Mədəniyyət və Turizm Nazirliyinin internet saytının yenilənmiş versiyası və yeni istifadəyə verilmiş elektron xidmətləri təqdim olundu

19 oktyabr 2015-ci il tarixində Muzey Mərkəzində Mədəniyyət və Turizm Nazirliyinin "mct.gov.az" rəsmi internet saytının yeni versiyasının təqdimatı keçirildi.



Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayevin də qatıldığı tədbiri nazirliyin informasiya və ictimayyətlə əlaqələr şöbəsinin rəhbəri Vüqar Şıxməmmədov açıq elan etdi. Məruzəçi bir həftədən sonra istifadəçilərin ixtiyarına veriləcək "mct.gov.az" rəsmi internet saytının yeni versiyasını tədbir iştirakçılarına təqdim etdi. Diqqəti saytın əsas menyusunda yerləşən "Afişa" və "e-xidmətlər" bölməsinə çəkərək qeyd etdi ki, Afişa bölməsi vasitəsilə həm vətəndaşlarımız, həm də turistlər kino, teatr, sərgilər haqqında məlumat ala biləcək. Məruzəçi elektron xidmətlərin daha da təkmilləşdirilməsini, gələn xaricilərin elektron xidmətdən yararlanmasını qarşıya məqsəd qoyduqlarını vurğulayaraq, bu xidmətlərin artırılmasının da nazirliyin qarşısında duran əsas tələb olduğunu qeyd etdi.

Sonra natıq elektron xidmətlər haqqında daha ətraflı informasiya vermək üçün sözü nazirliyin "Texniki təchizat və proqram təminatı" şöbəsinin müdiri Qabil Abbasova verdi. Qabil Abbasov Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmiş Siyahıya uyğun olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən xidmətlərin mərhələ-mərhələ elektronlaşdırılaraq "Elektron Hökumət" portalına inteqrasiya edildiyini diqqətə çatdırdı. Məruzəçi qeyd etdi ki, dövlət qurumları arasında ilk olaraq Mədəniyyət və Turizm Nazirliyinin kollegiyasının qərarına əsasən lisenziyalarla bağlı müraciətlər 2012-ci ildən onlayn qəbul edilir və lisenziyalar haqda məlumatlar elektron formada təqdim olunur.

Qabil Abbasov həmçinin, "Elektron Hökumət" portalı vasitəsilə turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin lisenziyaları üzrə arayışların verilməsindən söz açdı. Məruzəçi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Açıq Hökumət Məlumatları" portalına təqdim edilmiş servislər haqqında da məlumat verdi.

Daha sonra çıxış üçün söz Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayevə verildi. Nazir rəsmi saytın yeni versiyasının üstünlüklərindən, cəlbediciliyindən, daha müasir üslubda hazırlanmasından söz açdı. Əbülfəz Qarayev ötən ilin sonunda struktur islahatları nəticəsində yaranan informasiya və ictimayyətlə əlaqələr şöbəsinin fəaliyyətini yüksək qiymətləndirərək saytın yeni versiyasını onların fəaliyyətinin bəhrəsi kimi qeyd etdi.

Əbülfəs Qarayev bildirdi ki, "Elektron Hökumət" portalı vasitəsilə 17 istiqamət üzrə xidmətin həyata keçirilməsi Mədəniyyət və Turizm Nazirliyinə tapşırılıb: "Biz 12 xidmətin həyata keçməsini təmin etmişik. Qalan xidmətlərin də gələn ilin yayına kimi həyata keçirilməsini planlaşdırırıq". Nazir elektron layihələr sırasında GoMap-ın işini xüsusi qeyd etdi. Qeyd olundu ki, Gürcüstan da bizim sistemimizə qoşulub. Türkiyədə də bu sistemdən yararlanmaq istəyir. Gün ərzində 17 mindən çox insan bu sistemdən yararlanır. Amma bu rəqəmi qat-qat artırmaq olar. Bunun üçün elektron layihələr daha geniş miqyasda tanıdılmalı, ictimaiyyətə çatdırılmalıdır. Xidmətlərin elektronlaşması ilə bağlı bütün əməkdaşlarını təbrik edən nazir mədəniyyət sahəsinin tam açıq bir məkan olduğunu, bu ideyanın yeni innovasiyalar aparılmasına yol açacağına inandığını söyləyərək çıxışını və tədbiri yekunlaşdırdı.

# "Elektron Hökumət" portalından əldə edilən elektron arayışların (çıxarışların) əhatə dairəsi genişlənir




**Ölkəmizdə elektronlaşmanın inkşaf səviyyəsi günbəgün artır və artıq kağız üzərində olan bir çox sənədlərin elektron versiyası mümkün edilməkdədir. Son dövrlərdə elektron arayışlar(çıxarışlar) portalda ən çox istifadə olunan xidmətlərdəndir. Buna görə də sosial tələbatın çox olduğu elektron çıxarışların əhatə dairəsi getdikcə genişlənir.**

Bu günə qədər portal üzərindən əhaliyə 9 adda elektron çıxarış təqdim edilirdisə, hazırda Mədəniyyət və Turizm Nazirliyinin təqdim etdiyi yeni "Turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxsin lisenziyaları haqqında arayışlar" və RYTN tərəfindən "İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayış" xidmətləri də portalın istifadəçilərinə təqdim olunur. Artıq hər bir Azərbaycan vətəndaşı aşağıda göstərilən 11 adda elektron çıxarışı portal üzərindən formalaşdıraraq çap edə, yaxud elektron şəkildə aidiyyatı quruma göndərə bilər.

- ***Diplom haqqında arayış***
- ***Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış***
- ***Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış***
- ***Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış***
- ***Yaşayış yeri haqqında arayış***
- ***İş yerinə dair arayış***
- ***Vətəndaş haqqında "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən çıxarış***
- ***Ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında e-arayış***
- ***Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında e-arayış***
- ***Turizm fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxsin lisenziyaları haqqında arayışlar***
- ***İl ərzində rabitə xidmətləri üzrə ödənişlər haqqında arayış***

Qeyd edək ki, bu çıxarışlarda vətəndaşa aid olan müxtəlif fərdi məlumatlar qeyd olunur. Məsələn Əmək və Əhalinin Sosial Müdafiyə Nazirliyinin təqdim etdiyi "İş yerinə dair arayışda" istifadəçinin aylıq əmək haqqı, əmək müqaviləsi müddəti, arayışın təqdim olunacağı qurum, doğum tarixi, işlədiyi müəssisənin adı, vəzifəsi, şəxsiyyət vəsiqəsinə aid məlumatlar və s. öz əksini tapır. Buna görə də, çıxarışı əldə etmək üçün ilk olaraq "Elektron Hökumət" portalında (e-gov.az) qeydiyyatdan keçmək lazımdır. Portalda qeydiyyatdan keçdikdən sonra "Elektron arayışlar" bölməsinə daxil olaraq yuxarıda adı çəkilən çıxarışları əldə edə bilərsiniz.

Qeyd etdiyimiz kimi, elektron çıxarışları formalaşdıraraq çap edə, yaxud elektron şəkildə aidiyyatı quruma göndərə bilərsiniz. Çıxarışın üzərindəki QR-kod və ştrix kodlar vasitəsilə elə həmin səhifədə onun etibarlılığını yoxlamaq mümkündür. Belə ki, "Elektron Hökumət" portalının təqdim etdiyi "Elektron arayışlar" bölməsində "Elektron arayışların yoxlanılması" servisi də yerləşdirilmişdir.

Müasir dövrün elektron rahatlıqlarını öz həyat tərzinə çevirmiş vətəndaşlar bu günlərdə fərdi informasiyalarını portal üzərindən əldə etməyə üstünlük verirlər. Belə ki, təkcə bu ilin sentyabr ayı ərzində elektron çıxarışlardan 48 258 dəfə istifadə edilib.

Qeyd edirik ki, bir çox inkişaf etmiş ölkələrin "Elektron Hökumət" sistemlərində elektron arayışlardan (çıxarışlar) geniş istifadə olunur.

# "Xalq Bank" ASC vətəndaşlara "Elektron Hökumət" portalı üzərindən xidmət edəcək

"Elektron Hökumət" portalı ilə tərəfdaşlıq edən banklar siyahasına daha bir bank qoşuldu. "Xalq Bank" ASC kredit əməliyyatları prosesinə elektron arayışları daxil edərək vətəndaşlara daha rahat xidmət təqdim edəcək. Bu elektron xidmət vasitəsilə vətəndaş banka getmədən, vaxt itkisinə yol vermədən onlayn rejimdə portala daxil olaraq sistem tərəfindən avtomatik formalaşdırılan arayışı elektron şəkildə banka ünvanlaya bilər.

XalqBank

Bir ildən artıqdır ki, "Elektron Hökumət" portalı arayış əldə etmə problemini özünə xidmət konseptində elektron mühitdən həll edib. Portala girişi olan bütün vətəndaşlar özlərinə dair bir çox məlumatlarla (pensiya kapitalı, əmək müqaviləsi üzrə məlumatlar, təhsil və s.) yanaşı məlumatın əks olunduğu arayışı da əldə edə bilir. Bu da qurululan "Elektron Hökumət" infrastrukturunun şəffaflığından, vətəndaşyönümlüyündən xəbər verir.

www.e-gov.az

# “Daşınmaz əmlak/torpaq idarəçiliyində sahəvi reyestrlərin rolu” mövzusunda beynəlxalq tədbir keçirilib

Bu günlərdə Bakı şəhərində Əmlak Məsələləri Dövlət Komitəsinin təşkilatçılığı ilə BMT-nin Avropa İqtisadi Komissiyasının (AİK) Daşınmaz Əmlak İdarəçiliyi üzrə Hökumətlərarası İşçi Qrupu və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birgə əməkdaşlığı çərçivəsində "BMT-nin AİK regionu üzrə daşınmaz əmlak/torpaq idarəçiliyində sahəvi reyestrlərin rolu" mövzusunda beynəlxalq tədbir keçirilmişdir. Seminarın keçirilməsində məqsəd BMT AİK-ə üzv olan 56 dövlətdə daşınmaz əmlak/torpaq idarəçiliyi çərçivəsində sahəvi reyestr və kadastrların (daşınmaz əmlak, torpaq, meşə, su, faydalı qazıntı və s.) aparılması prinsipləri, reyestrdəki məlumatların elektron uçotu üzrə informasiya sistemlərinin qurulması qaydaları, onlar arasında qarşılıqlı əlaqə, elektron xidmətlər, bu sahədəki qanunvericilik bazası və Azərbaycan reallığı üçün aktual hesab edilən bir sıra digər istiqamətlərdə təcrübələrin təqdim olunması, mövcud çətinliklər və onların həlli yolları, habelə bu sahələrdə birgə fəaliyyət imkanları haqqında geniş müzakirələrin aparılmasından ibarətdir.

Tədbirdə AR Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, BMT-nin baş katibinin müavini, BMT AİK-in icraçı katibi Kristian Fris Bax, Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə, BMT-nin ərzaq ve kənd təsərrüfatı təşkilatının daşınmaz əmlak idarəçiliyi IT üzrə baş mütəxəssis Rumyana Tonçovska, BMT-nin Aik-in mənzil təsərrüfatı və daşınmaz əmlakın idarə edilməsi komitəsinin sədri Yelena Szolqayova iştirak ediblər. Tədbirdə həmçinin, ABŞ, Böyük Britaniya, Almaniya, İspaniya, İsveçrə, İtaliya, Portuqaliya, İrlandiya, Yunanıstan, Finlandiya, Avstriya, Niderland, Rusiya, Norveç və digər ölkələrin nümayəndələri də iştirak edib.

Seminar çərçivəsində AR Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov çıxış edərək qeyd etdi ki, cari ilin 9 ayı ərzində ölkənin iqtisadiyyatı 3.7 % artmış, qeyri-neft sektorunun inkişaf dinamikası 10% yüksəlmişdir. Kənd təsərrüfatı sahəsində isə 6.7% artım qeydə alınmışdır. Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollardan çox sərmayə qoyulmuş, 87 min yeni iş yeri açılmışdır. 9 ay ərzində əhalinin gəliri 5.8 % yüksəlmişdir. Belə inkişaf dinamikası çərçivəsində Azərbaycan əhalisinin gəlirləri son 10 il ərzində 7 dəfə artmışdır.

Ölkədə cərəyan edən elektronlaşma prosesində bəhs edən K.Həsənov daşınmaz əmlak/torpaq reyestrlərinin təşkilinin sosial mahiyyətini açıqlamış, bu mərhələdə əmlak münasibətlərində ciddi dəyişiklərin baş verdiyini vurğulamışdır. Qeyd olunan 9 ay ərzində dövlət əmlakının səmərəli idarəsinin təşkili üçün şəffaf sistemin yaradılması sosial-iqtisadi siyasətin bariz nəticələrindən olduğunu söyləmişdir.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə dünyanın inkişafının torpağın əhəmiyyətindən danışdı. Həmçinin, dünya iqtisadiyyatının inkişaf tempinin zəiflədiyi dövrdə ölkəmizdə sosial proqramların dayandırılmadığını, bu sahəyə 2 milyarddan çox vəsait ayrıldığını söylədi.

Daha sonra AİK-in Mənzil təsərrüfatı və daşınmaz əmlakın idarə edilməsi Komitəsi ilə canlı telekörpü yaradılıb və Komitənin sədri Yelena Szolgayova AİK-in Daşınmaz Əmlak İdarəçiliyi üzrə Hökumətlərarası İşçi Qrupunun fəaliyyətindən danışıb.

Beynəlxalq tədbirdə Azərbaycan, Almaniya, Sloveniya, Böyük Britaniya, Norveç, Danimarka, Yunanıstan, Finlandiya, Avstriya, Niderland, Ukrayna, Rusiya, Xorvatiya, İsveç, Moldovadan olan nümayəndələrin daşınmaz əmlak idarəçiliyi, sahəvi reyestrlərin yaradılması və təkmilləşdirilməsi ilə bağlı çıxış və təqdimatları olub.

Qeyd edək ki, "Elektron Hökumət" portalının nümayəndəsinin də iştirak etdiyi tədbir iki gün davam edib. Toplantı çərçivəsində "Google texnologiyaları və mümkün peyk təsvirlərin inteqrasiyası vasitəsilə torpaqların qiymətləndirilməsi və monitorinqini həyata keçirmək üçün sərbəst və açıq mənbə proqramı təminatı" mövzusunda peşəkar dərslərin keçirilməsi gözlənilir.

# Unibank "Elektron Hökumət" portalı vasitəsilə vətəndaşlara yeni innovativ xidmətlər təqdim etməyi planlaşdırır

Xəbər verdiyimiz kimi, ötən ilin oktyabr ayından "Elektron Hökumət” portalı ilə əməkdaşlıq edən "Unibank” Kommersiya Bankı ASC (Unibank) artıq bir ildir ki, kreditlərin sənədləşdirilməsi üçün portalın elektron arayış xidmətindən istifadə edir. Bu gün "Elektron Hökumət” portalı və Unibankın mütəxəssisləri arasında baş tutmuş görüşdə vətəndaşlar üçün daha innovativ elektron xidmətlərin hazırlanması məsələsi müzakirə olunmuşdur.

Belə ki, mövcud iqtisadi şəraiti nəzərə alaraq Unibank kreditlərin ayrılması istiqamətində risklərin azalmasına dair daha ciddi tədbirlərin alınması üçün müştərilər barədə daha ətraflı informasiyanın toplanılmasını planlaşdırır. Bununla əlaqədar Unibank vətəndaşlar qarşısında əlavə sənəd tələbi qoymaq kimi ənənəvi üsul əvəzində, vətəndaş tərəfindən bu arayışların portal vasitəsilə ötürülməsini təmin etməyə hazırlaşır. Bununla da, artıq kredit üçün müraciət edən vətəndaşın ödəmə qabiliyyətini daha ətraflı təhlil etmək və düzgün dəyərləndirmə aparmaq mümkün olacaq.

Eləcə də, Unibank özünün bir sıra onlayn xidmətlərini ölkənin vahid elektron xidmət məkanı olan "Elektron Hökumət" portalına inteqrasiya etməklə, bu xidmətləri vətəndaşlar üçün əlçatan edərək prosesi sadələşdirməyi planlaşdırır.

Görüşdə həmçinin, elektron imzanın elektron bankçılıq sahəsində tətbiqi imkanları, onlayn imzalama vasitələri və bunun üstünlükləri, bank müştəriləri ilə onlayn sənəd mübadiləsi təşkili məsələləri müzakirə edilmişdir.

# Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şura təkliflər hazırlayıb

Vətəndaşlara Xidmət və Sosial İnnnovasiyalar üzrə (VXSİ) Dövlət Agentliyi yanında Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şura qanunvericilikdə nəzərdə tutulan müxtəlif tipli arayışlarla bağlı təkliflər hazırlayıb.

Elektron Xidmətlərin Təşviqi üzrə İctimai Şura ölkə qanunvericiliyində nəzərdə tutulan müxtəlif tip arayışlar və onlardan effektiv istifadə məsələlərini müzakirə etmişdir. Müzakirələrdə VXSİ Dövlət Agentliyinin və Elektron hökumət Portalının operatoru – Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin (MHM) məsul nümayəndələri də iştirak edib.

Müzakirələrdə İctimai Şura tərəfindən hazırlanan müxtəlif tipli arayışların siyahısı da müzakirə edilib.

Müzakirələrdə qeyd edilib ki, ölkədə gedən elektron hökumət quruculuğu prosesi, dövlət informasiya sistemlərinin inteqrasiyası, xidmətlərin elektron formaya keçirilməsi sürətləndiyindən elektron hökumət quruculuğu baxımından qanunvericiliyin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Müxtəlif arayışları, sənədlərin sürətlərini verməli olan dövlət qurumlarının əksəriyyətində bu arayışlar vasitəsilə təsdiq olunan informasiyalar artıq elektron formaya keçirilib, dövlət qurumunun informasiya sistemlərində yerləşdirilib və digər bir sıra dövlət qurumları üçün də əlçatandır. Belə olan halda isə indiki qanunvericilikdə nəzərdə tutulduğu qaydada bu tip arayışların yenidən kağız formada vətəndaşdan tələb olunmasına ehtiyac qalmır.

Amma bununla belə müxtəlif arayışların və vətəndaş haqqında məlumatların tələb olunması qanunvericilikdə öz əksini tapdığından dövlət qurumları bu tip sənədləri vətəndaşdan tələb etməkdə davam edirlər.

Elektron hökumət quruculuğu prosesi həm də bir sıra arayışları həm elektron formada, həmçinin də ASAN Xidmət mərkəzləri vasitəsilə əldə edilməsi imkanlarını yaradıb.

Bunu nəzərə alaraq İctimai Şura elektron hökumət quruculuğu ilə əlaqəli mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə VXSİ Dövlət Agentliyində dövlət, özəl və vətəndaş cəmiyyəti nümayəndələrinin təmsil olunduğu İşçi Qrupunun yaradılmasını təklif edib.

Təkliflərdə həmçininn elektron hökumət quruculuğu baxımından qanunvericiliyin monitorinqinin aparılmasının vacibliyi vurğulanıb.

Təkliflərdə monitorinqlərin nəticəsindən asılı olaraq İşçi Qrup tərəfindən vətəndaşlardan tələb olunan müxtəlif tipli sənədlərin (arayış, etibarnamə, sənədlərin surətlərinin və s.) zəruriliyinin müəyyən olunması və onlardan daha effektiv istifadə (elektron formada, ASAN vasitəsilə və s.) ilə bağlı rəyin hazırlanması da öz əksini tapıb. Artıq təkliflər VXSİ Dövlət Agentliyinə təqdim edilib.

**Xeberler.az olaraq İctimai Şura tərəfindən hazırlanan müxtəlif tip arayışların siyahısını təqdim edirik:**

**1.** Ünvan haqqında arayış

**2.** Adlarına torpaq sahəsi olub-olmaması haqqında yerli bələdiyyədən arayış

**3.** İş yerindən arayış

**4.** Sağlamlıq haqqında arayış

**5.** Prezident təqaüdü barədə arayış

**6.** Staj və maaş barədə arayış

**7.** "Sürücülüyə yararlı olmaq barədə" arayış (Forma AZS-83)

**8.** "Şəxsiyyət vəsiqəsinin alınması üçün" tibbi arayış (Forma AZS-086/1)

**9.** Bakalavrlar və magistirlər üçün ali məktəbdən arayışı

**10.** Daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış (Forma 1)

**11.** Mənzilə hüququ olan şəxslər və mənzilin kommunal-məişət vəziyyəti barədə arayış (2 №-li forma).

**12.** Məhkumluğun olub olmaması barədə arayış

**13.** Mənzil üçün pay haqqının tam ödənildiyi barədə həmin mənzil-tikinti kooperativinin idarə heyətinin arayışı

**14.** Itirilmiş sənədlərlə bağlı daxili işlər orqanının arayışı

**15.** Əmək pensiyasi almaq hüququ olmaması barədə arayış.

**16.** Ailə tərkibi haqqında yaşayış yerindən arayış

**17.** Subaylıq haqqında arayış;

**18.** Ümumtəhsil məktəbləri şagirdlərinin təhsil aldıqları yer haqqında arayış

**19.** Ümumtəhsil məktəblərində çalışan pedaqoji və texniki heyətin iş yeri haqqında arayış

**20.** Diplom haqqında arayış

**21.** Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış

**22.** Kommunal xidmətlər üzrə borcların olmaması haqqında arayış

**23.** Şəxsiyyət vəsiqəsi məlumatları üzrə arayış

**24.** Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış

**25.** Yaşayış yeri haqqında arayış (2 №-li forma üzrə arayış)

**26.** Nəqliyyat vasitələrinin zədələnməsinə dair arayış

**27.** Nəqliyyat vasitələrinin mülkiyyətçilərinə avtomobilin axtarışda, yaxud yüklü olub-olmaması barədə arayış

**28.** "Fərdi identifikasiya kartı verilənədək Azərbaycan Respublikasının 15 yaşı tamam olmamış vətəndaşının yaşayış yeri üzrə qeydiyyata alınmasını təsdiq edən arayış"

**29.** Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta hadisəsi hesab edilə bilən halın təfərrüatları barədə arayış məhkumluq barədə arayış

**30.** Mənzil üçün pay haqqının tam ödənildiyi barədə həmin mənzil-tikinti kooperativinin idarə heyətinin arayışı

**31.** Daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış

**32.** İtirilmiş əşyanın tapılmaması barədə arayış

**33.** "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi

**34.** Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və girov qoyulması ilə əlaqədar müayinə arayışı

**35.** Həqiqi hərbi xidmət keçməsi barədə SHXÇDX tərəfindən verilən arayış

**36.** Həqiqi hərbi xidmətə yaralı olmaması barədə SHXÇDX tərəfindən verilən arayış

**37.** Hazırda həqiqi hərbi xidmətdə olması barədə SHXÇDX tərəfindən verilən arayış

**38.** Əlillik barədə Tibbi-sosial ekspert komissiyasının arayışı

**39.** Narkoloji dispanserdən qeydiyyatda olub-olmadığı barədə arayışlar

**40.** Əmək qabiliyyətini itirmək barədə arayış

**41.** Dövlət qiymətli kağızların emissiya prospektinin qeydiyyatı haqqında arayış

**42.** Qiymətli kağızların emissiyasının yekunları haqqında hesabatın qeydiyyatı haqqında arayış

**43.** Nikaha daxil olmaq istəyən şəxslərə tibbi müayinədən keçdiklərinə dair arayış veriləcək

**44.** Uşaqların doğulması (o cümlədən sağlamlıq imkanları məhdud uşağın) və onların 8 yaşadək tərbiyə olunmaları haqqında arayış

**45.** Arxiv arayışları və s.

www.e-gov.az

# Dövlət Gömrük Komitəsinin daha iki xidməti elektronlaşdırılaraq "Elektron Hökumət" portalında vətəndaşların istifadəsinə verildi

Dövlət Gömrük Komitəsi tərəfindən elektron xidmətlərin keyfiyyətinin artırılması, əhatə dairəsinin genişləndirilməsi və bununla da vətəndaşların rahatlığının təmin edilməsi istiqamətində ardıcıl işlər davam etdirilir. Bu məqsədlə, Dövlət Gömrük Komitəsinin daha iki elektron xidməti portalda vətəndaşların istifadəsinə verilib və bununla da, Komitənin "Elektron Hökumət" portalında təqdim etdiyi xidmətlərin sayı 8-ə çatmışdır.

**Portala yeni inteqrasiya olunan xidmətlər aşağıdakılardır:**

- ***Gömrük rəsmiləşdirilməsi üçün müraciət***
- ***Rəsmiləşdirilmə üçün tələb olunan sənədlərin surətləri***

"Gömrük rəsmiləşdirilməsi üçün müraciət" elektron xidmətindən istifadə etməklə gömrük rəsmiləşdirmələrini onlayn olaraq həyata keçirə bilərsiniz.

"Rəsmiləşdirilmə üçün tələb olunan sənədlərin surətləri" adlı xidmətdən istifadə edərək rəsmiləşdirilmə üçün tələb olunan sənədlərin surətlərini göndərmək mümkündür.

Bu xidmətlərdən istifadə üçün gücləndirilmiş elektron imzadan istifadə etməlisiniz.

Qeyd edək ki, cari ilin sentyabr ayı ərzində Dövlət Gömrük Komitəsinin portaldakı e-xidmətlərindən istifadə sayı 826 olmuşdur.

Ünvanlı dövlət sosial yardım sisteminin təkmilləşdirilməsi məqsədilə hazırlanan Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) ilə əlaqədar "Elektron Hökumət" portalı, ƏƏSMN və Mobil Operatorların nümayəndələri görüşüb.

# Dövlət Miqrasiya Xidmətinin səlahiyyətli nümayəndələri ilə "Elektron hökumət" portalına inteqrasiya olunmuş "Vahid Miqrasiya Məlumat Sistemi" ilə əlaqədar məsələlər ətraflı müzakirə edildi

**Bu günlərdə "Elektron Hökumət" portalının operatoru ilə Dövlət Miqrasiya Xidmətinin səlahiyyətli nümayəndələri arasında görüş keçirilmişdir. Görüşdə Dövlət Miqrasiya Xidmətinin "Elektron hökumət" portalına inteqrasiya olunmuş Vahid Miqrasiya Məlumat Sistemi ilə əlaqədar texniki, proqram və prosedur məsələlər ətraflı müzakirələr aparılmışdır.**

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı ilə "Elektron Hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı təsdiq edilmişdir. Bu siyahıda Dövlət Miqrasiya Xidmətinin aşağıdakı informasiya sistemi qeyd olunmuşdur:

- **Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi**

Görüşdə operatorun nümayəndələri tərəfindən qeyd olunmuşdur ki, "Fərdi məlumatlar haqqında Qanun"un tələblərinə uyğun olaraq, İnformasiya sistemlərinin portala qoşulmasını sürətləndirmək, informasiya sistemlərində subyektlər haqqında toplanmış məlumatların subyektə təqdim edilməsi üçün, fərdi məlumatlar haqqında qanunun tələblərinə uyğun olaraq elektron hökumət sistemində qurumlararası servislər bölməsi yaradılmışdır. Servislər vasitəsilə subyektlər özləri haqda toplanmış məlumatların səhihliyinə nəzarət etmək imkanı əldə edə bilərlər.



Əsas məsələlərdən biri kimi, mobil nömrə satışı qaydalarına edilmiş dəyişikliklərə uyğun olaraq Azərbaycan Respublikasına daxil olan əcnəbi vətəndaşlar mobil nömrə alarkən MHM-in Sellülar (mobil) Nömrə Satışı üzrə Vahid İnformasiya Sisteminin xidmətlərindən istifadə zamanı ortaya çıxa biləcək məsələlər müzakirə edildi

Bundan başqa, DMX-nin nümayəndələri ilə "Elektron Hökumət" portalı üzərindən digər qurumlarla inteqrasiya məsələləri barədə müzakirələr aparıldı. Görüşdə DMX-nin nümayəndələri tərəfindən bildirildi ki, "Elektron Hökumət"in inkişafı üçün qurumlararası məlumat mübadiləsi prioritet məsələdir və onlar tərəfindən bu yüksək qiymətləndirilir.

Qeyd edirik ki, hazırda Dövlət Miqrasiya Xidmətinin 10 xidməti elektronlaşaraq portal üzərindən vətəndaşların istifadəsinə verilib.

# Vətəndaşların "Elektron Hökumət" quruculuğunda iştirakı təmin edilir



Qloballaşan dünya siyasətinin əsas üstünlüklərindən biri "Elektron Hökumət"dir. "Elektron Hökumət" vətəndaşa daha yaxın, daha rahat, daha keyfiyyətli və şəffaf fəaliyyət göstərən, müasir cəmiyyətin tələbatından yaranan bir sistemdir. Nəzərə alsaq ki, vaxtın dəyərini bilən müasir insanlar daim tələsirlər, bu da onlarda mənəvi psixoloji gərginlik yaradır. Bu gərginliyi, tələskənliyi aradan qaldırmaq üçün hər birimizin "Elektron Hökumət"ə ehtiyacımız vardır. Odur ki, dünyanın bir çox qabaqcıl ölkələrində olduğu kimi ölkəmizdə də "Elektron Hökumət" quruldu.

Artıq vətəndaşla dövlət qurumları arasında informasiya, sənəd və digər xidmət əldə etmə prosesi onlayn qaydada kompüter vasitəsilə "Elektron Hökumət" portalı üzərindən həll edilir.

Portalın istifadəçi yönümlü interfeysi tez-tez yenilənir və inkşaf etdirilir, yeni funksionallıqlar yaradılır. Məsələn "mənim xidmətlərim" adlı vətəndaşın fərdi xidmət portfeli vaxtının qədrini bilən istifadəçinin rahatlığının təminatıdır. Qeyd edək ki, portalda bu bölmənin yaradılması "Fikir Bankı" vasitəsilə istifadəçilər tərəfindən verilən təklifin nəticəsidir.

**Bəs "Fikir Bankı" nədir?**
**Sivil idarəetmə modelini özündə əks etdirən "Elektron Hökumət"də vətəndaşın rolu nə qədərdir?**

Əlbəttə ki, "Elektron Hökumət" elə bir sistemdir ki, onun nə zaman tam qurulub başa çatdırıldığını təsəvvür etmək mümkün deyil. İnsan təxəyyülünün məhsulu olan müxtəlif fikirlər, ideyalar, innovativ yeniliklərlə portal daim təkmilləşir. Portalda yaradılan "Fikir Bankı" bölməsi də məhz bu məqsədə xidmət edir. "Elektron Hökumət" portalının daha da təkmilləşdirilməsinə maraq göstərən istifadəçilər "Elektron Hökumət" quruculuğu üzrə təkliflərini, ideyalarını bildirmək üçün məhz bu funksionallıqdan yararlanırlar. Qeyd edək ki, "Fikir Bankı"nda qeydiyyata alınan müraciətlərdən 12-si artıq reallaşdırılıb, portalın marağına səbəb olan 15 müraciət isə reallaşdırılması üçün müzakirəyə çıxarılıb.

**"Fikir Bankı"nda qeydiyyata alınan və vətəndaşların ən çox maraq dairəsində olan təkliflərdən bir neçəsini təqdim edirik:**

- *Portala müvafiq autentifikasiya vasitələri ilə daxil olan hər bir vətəndaşın "Şəxsi kabinet"i formalaşır. Bu gün vətəndaşlar şəxsi kabinetlərində müxtəlif tipli, cərimələr, portal üzərindən olunan müraciətlərin nəticələri barədə və s. bildirişlərin əlçatan edilməsini istəyir. Həmçinin, "Şəxsi kabinet"də əks olunan fərdi məlumatların yenilənməsi də təklif edilir.*
- *Bildiyiniz kimi, "Elektron Hökumət" portalı vətəndaşlara əlavə qayğı olan müxtəlif növ arayış tələbinə elektron çözüm tətbiq edən ilk sosial xidmət məkanıdır. Hazırda, portal üzərindən 10 adda arayış formalaşdırmaq mümkündür. Belə arayışlardan "yaşayış yeri barədə arayış"ın elektron ekvivalenti portalda mövcuddur, vətəndaşların "Fikir Bankı"na ünvanladıqları müraciətlərdən biri mənzildə qeydiyyatda olanlar barədə arayışın (Forma 2-nin) portal üzərindən formalaşdırılması ilə bağlıdır.*
- *Növbəti təklif dərman vasitələri barədə yeni qanuna əsasən dərman preparatlarının tənzimlənmiş qiymətləri ilə bağlıdır. Belə ki, vətəndaşlar təklif edirlər ki, dərman vasitələri üzrə vahid qeydiyyat sistemi yaradılsın və bu sistem portal üzərindən vətəndaşlara açıq edilsin. Vətəndaş apteklərə yaxınlaşmazdan əvvəl alacağı dərman preparatların qiymətini və digər mümkün məlumatları əldə edə bilsin. Bu məlumatları Açıq Hökumət Məlumatları – www.data.gov.az – a da əlavə etmək olar.*

Nəzərinizə çatdıraq ki, "Elektron Hökumət" quruculuğunda iştirak etmək istəyən vətəndaşlar portalın ana səhifəsində yerləşdirilmiş "Fikir bankı"na daxil olmaqla (https://www.e-gov.az/teklifler) "Elektron Hökumət"ə aid istədiyi təklifi daxil edə, yaxud burda toplanmış təkliflərə öz münasibətini bildirə bilərlər.

Onu da qeyd edək ki, portalın yeni versiyasında bir çox funksionallıqlar kimi "Fikir Bankı" da təkmilləşdirilmişdir. Artıq "Fikir Bankı" vasitəsilə vətəndaşın ideyasını daha dəqiq ifadə etməsinə yardımçı olacaq ideyanı görüntüləmək üçün "video link yüklə" funksionallığı mümkün edilib. Bununla da, təklifinizlə əlaqəli videonuz varsa youtube keçid linkini ideyanıza əlavə edə biləcəksiniz.

Əvvəl də vurğuladığımız kimi, "Elektron Hökumət" bürokratik halların aradan qaldırılması, vətəndaşlara şəffaf və rahat xidmət göstərilməsi üçün ən optimal həlldir. Mövcud bu şəffaf xidmət platformasının məqsədyönlü inkişafı üçün cərəyan edən proseslərdə cəmiyyətin aktiv iştirakı çox vacibdir. "Fikir Bankı" isə bu iştirakı təmin edəcək vasitələrdən sadəcə biridir.

www.e-gov.az

## 01.10.2015 – 31.10.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 141063 |
| 2 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 126909 |
| 3 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 67729 |
| 4 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 55598 |
| 5 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 49957 |
| 6 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 42911 |
| 7 | İş yerinə dair arayış | ƏƏSMN | 25986 |
| 8 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 24874 |
| 9 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 21077 |
| 10 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 18394 |
| 11 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 16939 |
| 12 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 15604 |
| 13 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 13162 |
| 14 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12071 |
| 15 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 11789 |
| 16 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 9594 |
| 17 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7265 |
| 18 | Elektron ödənişlər | RYTN | 7239 |
| 19 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 5121 |
| 20 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 4036 |

## 01.11.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 82 | 169 | 251 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.10.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 22394 | 6638 | 7820 | 36852 |

## 2015-ci ilin oktyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 46 | 353834 |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 198688 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 18 | 113320 |
| 4 | Elektron Arayışlar | 13 | 49363 |
| 5 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 8229 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 4588 |
| 7 | Mərkəzi Seçki Komissiyası | 7 | 3881 |
| 8 | Təhsil Nazirliyi | 7 | 2337 |
| 9 | Əmlak Məsələləri Dövlət Komitəsi | 34 | 1420 |
| 10 | "Azərsu" ASC | 5 | 1325 |
| 11 | "Azərişıq" ASC | 1 | 1268 |
| 12 | Dövlət Gömrük Komitəsi | 9 | 1153 |
| 13 | Mədəniyyət və Turizm Nazirliyi | 15 | 1124 |
| 14 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 775 |
| 15 | Səhiyyə Nazirliyi | 6 | 655 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 632 |
| 17 | Dövlət Statistika Komitəsi | 3 | 536 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 12 | 357 |
| 19 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 350 |
| 20 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 325 |
| 21 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 254 |
| 22 | Ədliyyə Nazirliyi | 3 | 250 |
| 23 | Vergilər Nazirliyi | 6 | 205 |
| 24 | Dövlət Dəniz Administrasiyası | 20 | 197 |
| 25 | "AzərEnerji" ASC | 1 | 186 |
| 26 | Nəqliyyat Nazirliyi | 4 | 157 |
| 27 | Fövqəladə Hallar Nazirliyi | 3 | 138 |
| 28 | Dövlət Sərhəd Xidməti | 3 | 132 |
| 29 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 115 |
| 30 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 17 | 93 |
| 31 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 87 |
| 32 | Baş Prokurorluq | 1 | 73 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 1 | 69 |
| 34 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 63 |
| 35 | Gənclər və İdman Nazirliyi | 4 | 58 |
| 36 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 49 |
| 37 | Xarici İşlər Nazirliyi | 1 | 47 |
| 38 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 41 |
| 39 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 39 |
| 40 | Energetika Nazirliyi | 5 | 39 |
| 41 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 10 | 31 |
| 42 | Müəllif Hüquqları Agentliyi | 5 | 27 |
| 43 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 21 |
| 44 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 16 |
| 45 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 12 |
| | **CƏMİ** | **339** | **746559** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.11.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 15 | 21 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 60 | 60 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 36 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 4 | 13 | 10 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 16 | 7 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 33 | 30 | 30 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 16 | 36 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 0 | 0 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 4 | 8 | 14 | 11 |
| 23 | Əmlak Məsələləri Dövlət Komitəsi | 29 | 26 | 31 | 31 | 26 |
| 24 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 25 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 26 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 6 | 6 |
| 27 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 28 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 29 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 16 | 17 | 21 | 21 |
| 30 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 31 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 32 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 11 | 11 |
| 33 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 34 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 35 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 3 | 2 |
| 38 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 39 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 19 | 18 | 18 | 18 | 18 |
| 41 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **455** | **343** | **407** | **482** | **406** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 4 | 5 | |
| 3 | "Azərenerji" ASC | | | 1 | 1 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 7 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 2 | |
| 7 | "Azərişıq" ASC | | | 2 | 5 | |
| 8 | Elektron Arayışlar | | | 7 | | |
| | **CƏMİ:** | | | **24** | **23** | |
| | **YEKUN** | **455** | **343** | **431** | **505** | **413** |

# "Elektron Hökumət" portalına daxil olanların sayı 2 573 829 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron Hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin oktyabr ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 9,537,237 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 2,573,829 nəfər olub. Belə ki, 2,573,829 nəfər ümumən 9,537,237 dəfə portala baxıb və 16,924,539 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 33,075,414 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 22 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 27%-ni yeni istifadəçilər, 73%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Oktyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 354,607 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 108,319 nəfər olub. Həmin şəxslər 1,439,982 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 746,559 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 39 saniyə təşkil edib. Oktyabr ayı ərzində portala müraciət edənlərin 20.2%-ni yeni istifadəçilər, 79.8%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 338,616-a çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 431 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az